AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* *№ 40 (1440), 29 oktyabr - 4 noyabr 2019-cu il* *Qəzet 2001-ci ildən çıxır.*



## Çingiz Hüseynzadə AOK-un Olimpiya Oyunları Komissiyasının sədri seçilib

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Avropa Olimpiya Komitəsinin (AOK) Varşavada keçirilən Baş Assambleyasında bu qurumun Olimpiya Oyunları Komissiyasının sədri seçilib.

MOK-dan "Olimpiya dünyası qəzetinə bildiriblər ki, tədbirdə Polşa Olimpiya Komitəsinin 100 illik yubileyi qeyd olunub. Yubiley münasibətilə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və baş katibin müavini Azər Əliyev xatirə hədiyyələri təqdim ediblər.

Assambleyada AOK-un Olimpiya Oyunları, Avropa Gənclər Festivalı, Atletlər, Olimpiya mədəniyyəti və irs, Olimpiya Akademiyası və digər komissiyalarının iclasları keçirilib. Baş Assambleyada Çingiz Hüseynzadə Olimpiya Oyunları Komissiyasının sədri seçilib.

Həmçinin Tokio-2020, Paris-2024 Yay, Pekin-2022 Qış Olimpiya Oyunlarının, 2023-cü ildə Krakov və Malopolskada təşkil olunacaq üçüncü Avropa Oyunlarının hazırlıq işlərinə dair hesabat məruzələri dinlənilib. Qeyd edək ki, Avropa Olimpiya Komitələrinin (AOK) Polşanın paytaxtı Varşavada keçirilən Baş Assambleyası çərçivəsində Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, AOK-un İcraiyyə Komitəsinin üzvü Çingiz Hüseynzadə Polşanın Prezidenti Andjey Duda ilə görüşüb.

## Azərbaycanın Gənclər və İdman naziri Avropa Olimpiya Komitələrinin 48-ci Baş Assambleyasında çıxış edib



Varşavada səfərdə olan Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov Avropa Olimpiya Komitələrinin (AOK) 48-ci Baş Assambleyasında çıxış edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Olimpiya dünyası" qəzetinə bildiriblər ki, Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax, AOK-un prezidenti Yanes Kosyançiçin də iştirak etdiyi tədbirdə A.Rəhimov çıxışında bir neçə mühüm məsələyə toxunub.

Bu ilin iyulunda Bakıda keçirilmiş XV Avropa Gənclər Olimpiya Festivalı haqqında danışan nazir ölkəmizin bu yarışa hazırlığı, görülmüş işlər, təşkilati məsələlər və ümumilikdə bir sıra istiqamətlər haqqında məlumat verib. A.Rəhimov vurğulayıb ki, Avropanın 48 ölkəsindən 2613 ən güclü idmançının iştirak etdiyi yarış 26 ölkədən 346 jurnalist tərəfindən işıqlandırılıb. Yerli və beynəlxalq texniki heyətlərin 763 üzvü Oyunların təşkilinə cəlb olunub. On iki arena yarışların keçirilməsi üçün bütün standartlara cavab verib. Beş yüz azərbaycanlı peşəkar Oyunların ərsəyə gəlməsində müstəsna rol oynayıb.

Sonra ölkəmizin idman siyasətindən, bu istiqamətdə atılan addımlardan söz açan nazir Azərbaycanda ötən illər ərzində uğurla həyata keçirilmiş idman yarışları, bu turnirlərə tamaşaçı marağı, arenaların fəaliyyəti, idman siyasəti və digər mühüm məsələlərdən danışıb. Könüllük hərəkatının da Azərbaycanda geniş vüsət aldığını diqqətə çatdıran A.Rəhimov hazırda təkcə idman yarışlarında deyil, digər tədbirlərdə də könüllülərin aparıcı qüvvə olduğunu söyləyib. Bildirib ki, Avropa Gənclər Olimpiya Festivalında 2500 könüllünün iştirakı nəzərdə tutulsa da, bu rəqəm artaraq 3500 olub.

A.Rəhimov səfəri çərçivəsində BOK, AOK və digər mötəbər qurumların rəhbər şəxsləri ilə də görüşlər keçirib.

## MDB hökumət başçıları Birliyin idman oyunlarının keçirilməsini qərara alıblar

MDB ölkələrinin hökumət başçılarının iclasının yekunu olaraq iyirmiyə yaxın sənəd imzalanıb. Onların sırasında Birlik ölkələrinin Oyunları barədə qərar da var. Sənədə əsasən Oyunlar MDB iştirakçısı olan dövlətlərdə növbə ilə rus əlifbası sırasına uyğun keçiriləcək. Beləliklə, əlifba sırası ilə götürdükdə, ilk Oyunlara Azərbaycan ev sahibliyi edə bilər. Oyunların iki ildə bir dəfə ümumilikdə 10 günədək müddətdə təşkil edilməsi planlaşdırılır. Yarışların təşkili və keçirilməsi ilə bağlı xərcləri ev sahibi olan ölkə ödəyəcək.

## "Böyük dəbilqə" turnirində 3 medal



Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən "Böyük dəbilqə" turnirində Azərbaycan cüdoçuları 3 medal qazanıblar.

Komandamıza ilk medalı Orxan Səfərov qazandırıb. 66 kiloqram çəki dərəcəsində yarışan cüdoçumuz Almaniya, İsrail, Rusiya, Qazaxıstan və Kuba idmançılarına qalib gələrək finala çıxıb. Həlledici qarşılaşmada İtaliya təmsilçisi Manuel Lombardoya uduzan cüdoçumuz "Böyük dəbilqə"nin gümüş medalı ilə kifayətlənib. Daha bir gümüş medalı isə yığmamızın aktivinə 100 kq çəki dərəcəsində mübarizə aparan Zelim Kotsoyev yazdırıb. O, Fransa, Macarıstan, Pakistan və Türkiyə idmançılarına qalib gəlsə də, final qarşılaşmasında Koreya təmsilçisi Ço Quhama məğlub olaraq ikinci yerdə qərarlaşıb.

Ağır çəkidə (+100 kq) isə komandamıza bürünc medalı cüdoçumuz Uşangi Kokauri qazandırıb. Təmsilçimiz Ukrayna idmançısı Aleksandr Qordiyenko ilə üçüncü yer uğrunda döyüşdə qalib gəlib. Qeyd edək ki, Azərbaycan millisi yarışda 10 kişi və 5 qadın cüdoçu ilə iştirak edib.

## *Paris-2024-ün yeni loqotipi müəyyənləşib*

Beş ildən sonra Fransa paytaxtında keçiriləcək Paris-2024-ün Təşkilat Komitəsi Yay Olimpiya və Paralimpiya Oyunlarının yeni loqotipini təqdim edib.

Emblem Olimpiya məşəlini, medalı və Fransa Respublikasının rəmzlərindən biri olan qızılsaçlı gənc qadın Mariannanın siluetini əks etdirir. Beynəlxalq Olimpiya Komitəsinin (BOK) rəsmi saytında BOK-un Əlaqələndirmə Komissiyasının sədri Pyer-Olivye Bekers-Vyejanın sözlərindən sitat gətirilib: "Paris oyunlarının Təşkilat Komitəsini yeni emblemin təqdimatı münasibətilə təbrik edirəm. Şübhə etmirəm ki, onun innovasiyalı dizaynı bütün dünyada tez bir zamanda tanınacaq və 2024-cü ildə keçiriləcək Oyunların vizit kartı olacaq. Medalın, Olimpiya məşəlinin və Mariannanın siluetinin vəhdəti Olimpiya dəyərlərini, tarixi və fransız ruhunu təcəssüm etdirir ki, bu da Olimpiya Oyunlarına xüsusi rəng qatacaq".

Beləliklə, təşkilatçılar Parisin Olimpiya müraciətində ilkin olaraq müzakirə edilən Eyfel qülləsinin emblemindən imtina ediblər. Yeni emblemdə artıq 1924-cü ildə dünyanın ən əsas idman yarışlarına ev sahibliyi etmiş Parisə bir daha ehtiram ifadə olunur. Müəlliflərin düşüncəsinə görə, onun dəqiq və yığcam cizgiləri təxminən yüz il əvvəl keçirilmiş Olimpiya Oyunlarında istifadə olunmuş ar-de-ko üslubuna əsasən hazırlanıb. Yeri gəlmişkən, emblem ilk dəfə həm Olimpiya, həm də Paralimpiya Oyunları üçün eyni olacaq, kiçik fərq yalnız aşağıda təsvir edilmiş Olimpiya halqaları və Paralimpiya cizgisi olacaq. Fransa paytaxtında Yay Olimpiya Oyunları 2024-cü il iyulun 26-dan avqustun 11-dək, Paralimpiya Oyunları isə avqustun 28-dən sentyabrın 8-dək keçiriləcək.

PARIS 2024 PARIS 2024

## *Anons*


*Milli komandamızın lideri qızıl mükafata layiq görülüb* Səh. 2

Yunanıstana və Qəbələyə səfər edən məktəblilər Milli Olimpiya Komitəsində olublar Səh. 3

Xırdalan məktəbində gələcəyin istedadlı şahmatçıları yetişir Səh. 5

*Avropa zonası üzrə əsas seçmə mərhələ yekunlaşdı* Səh. 7

## Milli komandamızın lideri qızıl mükafata layiq görülüb

***Sablya üzrə milli komandamızın lideri Anna Başta Tbilisidə keçirilən "Satellite" seriyalı beynəlxalq turnirdə qızıl medal qazanıb. Qrup mərhələsini 5 qələbə ilə başa vuran idmançımız 1/8 finalda tunisli Ben Çaabane Amiraya 15:4 hesabı ilə qalib gəlib. A.Başta 1/4 finalda Özbəkistan idmançısı Paola Pliegonu 15:5 hesabı ilə məğlub edib.***

Təmsilçimiz yarımfinalda Türkiyə təmsilçisi İrina Şçuk üzərində 15:10 hesablı qələbə əldə edib, finalda Teodara Kaxianini (Gürcüstan) 15:12 hesabı ilə üstələyib. Digər sablyaçılarımızdan Səbinə Kərimova, Sevil Bünyatova və Valeriya Bolşakova qrup mərhələsini asanlıqla adlayıblar. S.Bünyatova qrupda 5, S.Kərimova və V.Bolşakova isə 4 qələbə qazanıblar. V.Bolşakova 1/8 finalda Teodara Kaxianiyə 12:15 hesabı ilə uduzub. S.Kərimova isə bu mərhələdə türkiyəli sablyaçı Kose Fatma Zəhraya 11:15 hesabı ilə məğlub olub. S.Bünyatova 1/8 finalda Paola Pliego ilə görüşü 9:15 hesabı ilə geridə bitirib. Qrup mərhələsini 1 qələbə ilə başa vuran Aysel Əhədova isə mübarizəni erkən dayandırıb. Kişi sablyaçıların şəxsi yarışında qrup mərhələsini 3 qələbə ilə bitirən Cavanşir Ağakişiyev 1/16 finalda Səudiyyə Ərəbistanı təmsilçisi Əli Əlhüseynə 6:15 hesabı ilə məğlub olub.



## *Azərbaycanlı gənc Antidopinq Konvensiyasına uyğunluq üzrə Məsləhət Qrupunun rəhbəri seçilib*



Azərbaycan idmanda sağlam rəqabətin aparılması, atletlərin dopinq preparatlarından istifadəsinin qarşısının alınması, idmanın inkişafı məqsədilə yeni qanunların işlənib hazırlanması və bu kimi önəmli təşəbbüslərdə daim ön sıralarda olub. "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, Ümumdünya Antidopinq Agentliyinin iclasının Bakıda keçirilməsi və digər mühüm layihələr bunun bariz nümunəsidir. Məhz bu uğurlu siyasətin nəticəsi olaraq, Gənclər və İdman Nazirliyinin sektor müdiri Məryəm Qafarzadə oktyabrın 25-də Avropa Şurasında keçirilən Antidopinq Konvensiyasının 51-ci Monitorinq Qrupunun iclasında 27 iştirakçı ölkənin nümayəndələrinin səsverməsi nəticəsində yekdilliklə həmin Konvensiyaya uyğunluq üzrə Məsləhət Qrupunun rəhbəri vəzifəsinə seçilib. Avropa Şurasının Antidopinq Konvensiyasının üzv dövlətlərin quruma uyğunluğunun müəyyən edilməsi, uyğunluğun monitorinqinin aparılması, nəticələrin Monitorinq Komitəsinə təqdimatı, Konvensiyanın tətbiqində ölkələrə yardım göstərilməsi Məryəm Qafarzadənin fəaliyyətinin əsas istiqamətlərindən olacaq. Avropa Şurasının Antidopinq Konvensiyasına 52 ölkə qoşulub.

## Şimali Kiprdə uğurlu çıxış

Azərbaycanın stolüstü tennisçiləri Şimali Kiprdə təşkil olunan beynəlxalq turnirdə uğurla çıxış ediblər. Stolüstü tennisçilərimiz komanda yarışında ikinci yeri tutublar. Ölkəmizi şəxsi yarışlarda təmsil edən Emin Məmmədov gümüş, Kənan Pənahov bürünc medal qazanıblar. Qoşa yarışlarda Emin Məmmədov - İlkin Abdulov cütlüyü gümüş, Kənan Pənahov - Xaliq Becanov cütlüyü isə bürünc medala layiq görülüblər.



## *Təmsilçimiz "Algeria İnternational 2019" turnirində ikinci yerlə kifayətlənib*

Azərbaycan badmintonçusu Edi Reski Dviçayo Əlcəzairdə keçirilən "Algeria International 2019" turnirində gümüş medal qazanıb. Turnirin reytinq favoritlərindən sayılan badmintonçumuz 1/16 finalda hindistanlı Anant Şivam Jindalı 2:0 hesabı ilə məğlub edib. Dviçayo növbəti mərhələdə yerli idmançı Yosef Sabri Medel üzərində 2:0 hesablı qələbə qazanmaqla 1/4 finala yüksəlib. Bu mərhələdə Türkiyə təmsilçisi Emre Laleni 2:1 hesabı ilə üstələyən təmsilçimiz yarımfinalda Mavriki badmintonçusu Corcs Julyen Paulu mübarizədən kənarlaşdırıb - 2:0. Badmintonçumuz finalda turnirin 1 nömrəli reytinq favoriti, Bakıda keçirilən ilk Avropa oyunlarının qalibi ispan Pablo Abiana 0:2 hesabı ilə uduzub. "International Series" kateqoriyalı yarışı ikinci sırada başa vuran Dviçayo hesabına 2130 reytinq xalı yazdırıb.

Digər badmintonçumuz Ezmi Qovimuramadhoninin onaltıdabir finalda rəqibi yarışda iştirak etmədiyindən təmsilçimiz mübarizəyə 1/8 finaldan qoşulub. Təmsilçimiz bu mərhələdə Fransa təmsilçisi, bir çox "International" seriyalı yarışların qalibi Leo Rossiyə 0:2 hesabı ilə məğlub olub.

## *WAKO versiyasında 9 medal*

Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda kikboksinqin WAKO versiyası üzrə dünya çempionatında Azərbaycan komandası 9 medal qazanıb. kikboksçularımızdan Eduard Məmmədov və Ramal Aslanov bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıblar. Məhəmməd İmanov, Telman Məhərrəmov yalnız finalda uduzaraq gümüş medalla kifayətləniblər. Nurlan Məmmədov, Emil Hümbətov, Anar Məmmədov, Asəf Aslanov və Fuad Həşimi üçüncü pillədə qərarlaşıblar.

## *Nazirliyin qurumları arasında voleybol turniri keçirilib*

Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-Sağlamlıq Mərkəzi və Fövqəladə Hallar Nazirliyi işçilərinin həmkarlar ittifaqının birgə təşkilatçılığı ilə nazirliyin qurumları arasında voleybol çempionatı keçirilib. Çempionatın oyunları FHN-in İdman-Sağlamlıq Mərkəzinin arenasında təşkil olunub. Yarışda 120-ə yaxın idmançının təmsil olunduğu 11 komanda qüvvəsini sınayıb. Gərgin idman mübarizəsi şəraitində keçən çempionatın final görüşü FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin və Dövlət Yanğın Mühafizə Xidmətinin komandaları arasında olub. Qarşılaşmada qalib gələn Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin komandası yarışın qızıl medalına layiq görülüb. İkinci yerə Dövlət Yanğın Mühafizə Xidmətinin komandası, üçüncü yerə isə Xüsusi Riskli Xilasetmə Xidmətinin voleybolçularını məğlub edən Mülki Müdafiə Qoşunlarının komandası layiq görülüb. FHN işçilərinin həmkarlar ittifaqının sədri Mehman İsmayılov, nazirliyin İdman-Sağlamlıq Mərkəzinin rəisi, polkovnik Füzuli Musayev, Azərbaycan Voleybol Federasiyasının vitse-prezidenti Faiq Qarayev, baş katibi Cəlil Cəfərov və bir sıra fəxri qonaqlar oyunları izləyiblər. Füzuli Musayev, Mehman İsmayılov və Faiq Qarayev çıxışlarında komandaları təbrik edərək, onlara növbəti yarışlarda uğurlar arzulayıblar. Sonda qalib komandalara kubok, medal və diplomlar təqdim edilib. Yarışın baş hakimi Səbuhi Əliyev olub.



## Tamblinq və batut gimnastikası üzrə yarışlar başlayır




Azərbaycan Gimnastika Federasiyasının (AGF) yerli yarışlarının növbəti iştirakçıları tamblinq və batut gimnastikasının təmsilçiləri olacaq. Noyabrın 8-9-da tamblinq üzrə 17-ci Azərbaycan çempionatı və birinciliyi, həmçinin batut gimnastikası üzrə 5-ci ölkə çempionatı və birinciliyi keçiriləcək. Digər yarışlardan fərqli olaraq tamblinqçilər və batutçular ayrı-ayrı məkanlarda yarışacaqlar. Tamblinq yarışları noyabrın 8-də Bakı Gimnastika Məktəbində, batut gimnastikası üzrə yarışlar isə ertəsi gün Bakı Olimpiya İdman Kompleksində baş tutacaq. Tamblinq yarışlarında Bakı Gimnastika Məktəbi və "Neftçi" idman klubunun nümayəndələri uşaqlar, yeniyetmələr, gənclər və böyüklər yaş qruplarında mübarizə aparacaqlar. Batut gimnastikası üzrə yarışda balacalar, uşaqlar, yeniyetmələr, gənclər və böyüklər yaş kateqoriyaları üzrə iştirakçılar fərdi və sinxron proqramda Bakı Gimnastika Məktəbi və "Ocaq Sport" idman klubunu təmsil edəcəklər. Yarışda ilk dəfə Qaxdan olan gimnastlar da iştirak edərək, nümunəvi çıxışlar göstərəcəklər.

## Federasiyanın baş katibi beynəlxalq tədbirdə iştirak edib

Estoniyanın paytaxtı Tallinndə Avropa Atletika Federasiyaları Assosiasiyasının konvensiyası keçirilib. Ölkəmizi tədbirdə Azərbaycan Atletika Federasiyasının baş katibi Məhərrəm Sultanzadə təmsil edib. Tədbirə Beynəlxalq Atletika Federasiyası, Avropa Atletika Federasiyaları Assosiasiyasının prezidentləri, vitse-prezidentləri, komitə üzvləri, üzv federasiyaların rəhbər işçiləri və digərləri qatılıblar.

## Könüllülər kuboku uğrunda turnirin qalibləri mükafatlandırılıb



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin konfrans zalında basketbol (3X3) üzrə könüllülər kuboku uğrunda turnirin qaliblərinin mükafatlandırma mərasimi keçirilib. Baş İdarənin rəisi Raqif Abbasov, "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyinin sədri Miraqil Seyidzadə və digər rəsmi şəxslərin iştirakı ilə keçirilən tədbirdə qalib komandanın üzvlərinə növbəti yarışlarda uğurlar arzulanıb, müvafiq dərəcəli diplom və medallar təqdim olunub. Mükafatlandırma mərasimindən sonra oktyabrın 28-31-də Binəqədi rayonu 248 nömrəli tam orta məktəbin meydançasında təşkil olunacaq futbol üzrə könüllülər kuboku uğrunda turnirin püşkatma mərasimi keçirilib. Su İdman Sarayının yaxınlığında yeni salınmış ABAD məhəllədə keçirilən basketbol (3X3) üzrə könüllülər kuboku uğrunda turnirdə 13 oğlan və 7 qız komandası mübarizə aparıb.



## İlqar Rəhimov Beynəlxalq Paralimpiya Komitəsinin yeni icraçı direktoru ilə görüşüb

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimovun rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Paralimpiya Komitəsinin (BPK) Almaniyanın Bonn şəhərində keçirilən Baş Assambleyasında iştirak edib.

İ.Rəhimov səfər çərçivəsində BPK-nın yeni təyin olunmuş icraçı direktoru Mayk Piters ilə görüşüb.

Görüşdə Paralimpiya Hərəkatının inkişafı, Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarına hazırlıq və BPK ilə AMPK arasında əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib.

Komitənin prezidenti "Agitos" Beynəlxalq Fondunun İcraiyyə Komitəsinin sədri Rita Van Drellə də görüşərək əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparıb.

## *İdman gimnastlarımız Tbilisidə uğurla çıxış ediblər*

Tbilisidə idman gimnastikası üzrə "Medea Cup" beynəlxalq turniri keçirilib. Turnirdə ölkəmizi yığma komandamızın üzvləri Anar Həsənov, Rəsul Əhmədzadə və Ramin Dəmirov təmsil ediblər.

İdmançılarımızdan ən yaxşı nəticəni A.Həsənov və R.Əhmədzadə göstəriblər. Belə ki, A.Həsənov sərbəst hərəkətlərdə, R.Əhmədzadə isə turnikdə birinci olublar.



A.Həsənov dəstəli atda çıxışına görə gümüş, R.Əhmədzadə isə bürünc medal qazanıb. Onların komanda yoldaşı R.Dəmirov isə halqalarda ikinci pillədə qərarlaşıb. Gimnastımız paralel qollarda üçüncü yeri tutub.

## *Azərbaycan Gimnastika Federasiyası "TeamGym" kursları təşkil edib*

Azərbaycan Gimnastika Federasiyası (AGF) ölkəmizdə yeni gimnastika növü olan "TeamGym" üzrə kurslar təşkil edib.

Bakıda yerli gimnast və məşqçilər üçün keçirilmiş kursların məqsədi "TeamGym" komanda gimnastika növünün Azərbaycanda inkişaf etdirilməsidir.

Kurslar İslandiyadan dəvət olunmuş mütəxəssislər İris Svavarsdottir, İris Mist Maqnusdottir və Helqa Svana Olafsdottir tərəfindən keçirilib.

AGF-in nümayəndəsi İnara İsrafilbəyova bildirib ki, kurslarda 40-a yaxın iştirakçı - gimnastlar, məşqçilər və xoreoqraflar iştirak edib.

"TeamGym" Azərbaycanda yeni növdür və biz bu gimnastika növünü ilyarımdır ki, inkişaf etdiririk. Azərbaycan komandası ilk dəfə bu növ üzrə ötən il Portuqaliyada keçirilmiş 12-ci Avropa çempionatında iştirak edib. Kurslarda bu növün qaydaları izah olunub və "TeamGym"lə bilavasitə məşğul olan idmançılara təlim keçirilib", - deyə İ.İsrafilbəyova bildirib.

O, həmçinin qeyd edib ki, Azərbaycanın "TeamGym" komandası 2020-ci ildə Danimarkada keçiriləcək Avropa çempionatında iştirak etməyi planlaşdırır.

AGF-in digər nümayəndəsi Akif Kərimlinin sözlərinə görə, kurslarda "TeamGym"lə bağlı bütün məsələlər müzakirə olunub.

Bildirib ki, kurs məşqçilik və hakimlik fəaliyyətlərinə həsr olunub. "TeamGym" gimnastikanın bütün növlərindən elementlərin birləşdiyi mürəkkəb və baxımlı idman növüdür. Təkcə sərbəst hərəkətlərdə bədii gimnastika, aerobika və idman gimnastikasından elementlər mövcuddur ki, bu da "TeamGym"i idmançılar üçün mürəkkəb və tamaşaçılar üçün daha maraqlı edir.

# Yunanıstana və Qəbələyə səfər edən məktəblilər Milli Olimpiya Komitəsində olublar

***Bu yaxınlarda Olimpiya Mədəniyyəti və Təhsil Proqramının "Ən fəal" və "Fəal" məktəbləri kateqoriyasında seçilərək Yunanıstana və Qəbələyə səfər edən məktəblilər Milli Olimpiya Komitəsində olublar.***

Xəbər verdiyimiz kimi, bir müddət əvvəl Bakıda keçirilən Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində Olimpiya Mədəniyyəti və Təhsil Proqramı (OCEP) layihəsi təşkil olunmuşdu. Proqram Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun maliyyə dəstəyi, Milli Olimpiya Komitəsinin təşkilatçılığı, Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalı Əməliyyat Komitəsi, həmçinin Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin köməyi ilə reallaşdırılıb. Proqramda iştirak etmiş və "Ən fəal" kateqoriya üzrə qalib gəlmiş məktəblərin nümayəndələri Yunanıstana, "Fəal" kateqoriyasında fərqlənən məktəblərin nümayəndələri isə Qəbələyə səfər etmək imkanı qazanıblar. Məktəblilər səfər çərçivəsində müxtəlif yarışların keçirildiyi məkanlara və muzeylərə səyahətlər edərək, Olimpiya biliklərini genişləndirib, dostluq, sülh və qardaşlıq məfhumlarını mənimsəyiblər.



Layihə çərçivəsində Yunanıstana və Qəbələyə səfər edən məktəb nümayəndələri "Olimpiya dünyası" qəzetinə səfər təəssüratlarını bölüşüblər.

***Aysel Həsənova (Tahir Həsənov adına 23 saylı tam orta məktəbin şagirdi):***

- Yay müddətində Bakıda keçirilən Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində pavilyonda, Atletlər Kəndində şagirdlərlə, idmançılarla birlikdə görüşmüz oldu. Bu tədbirlərdə bir çox məktəbin nümayəndələri iştirak edir və hazırladıqları proqramı təqdim edirdilər. Düşünürəm ki, bu layihədə fəallığıma və bacarığıma görə digər həmyaşıdlarımdan seçildim. Elə bunun nəticəsində də ilk Olimpiya Oyunlarının keçirildiyi Afina şəhərinə yollanmaq imkanı qazandıq. Bu səfər məndə çox müsbət və gözəl təəssüratlar yaratdı. İdmanla bağlılığımızı hiss etdik. Yunanıstana səfərim mənim üçün unudulmaz olaraq qalacam. Maraqlı yerləri gəzib, tanış olduq. Bir sözlə, yeni ölkə ilə tanış olmaq çox sevindiricidir. Bir çox ölkələrdə olmuşam. Lakin Yunanıstanda birinci dəfə idi ki, olurdum. Bu, həm məktəbimiz, həm də mənim üçün çox qürurverici hadisə kimi yadda qaldı. Bizə bu şəraiti yaratdığına görə Milli Olimpiya Komitəsinə və Təhsil Nazirliyinə minnətdarlığımı bildirirəm.

***Aynil Quluzadə (Nizami rayonu 16 saylı tam orta məktəbin şagirdi):***

- Bu il keçirilmiş OCEP layihəsində bizim məktəbimiz də iştirak etdi. Bu layihədə biz Serbiyanı təmsil edirdik. Serbiya dövlətinin tarixi, adət-ənənələri ilə tanış olduq. Serbiyada olan bir məktəblə də tele-körpü vasitəsilə danışıqlar apardıq. Məktəbimiz OCEP layihəsində fəallığı ilə seçildiyinə görə, bir neçə fəal şagird Qəbələyə səfər etmək imkanı qazandı. Biz 3 gün ərzində Qəbələ Atıcılıq Klubunda qaldıq. Bu bizim üçün sevindirici haldır. Bundan başqa, biz Nohur gölünə getdik. Burada da çox gözəl mənzərə ilə qarşılaşdıq.

***Elnarə İbrahimova (7 saylı tam orta məktəbin müəlliməsi):***

- Mötəbər OCEP layihəsi çərçivəsində seçilmiş məktəblərdən oldu və Qəbələyə səfər etmək imkanı qazandı. Bu səfər həddindən artıq maraqlı keçdi. Səfər təkcə uşaqların deyil, bizim də çox xoşumuza gəldi. Uşaqlar arasında müxtəlif oyunlar, gəzintilər, yarışlar keçirildi. Bütün bunlar uşaqlar üçün yaddaqalan oldu. Onların birgə fəaliyyəti həm bizə, həm də uşaqlara xoş təsir bağışladı. Avropa Gənclər Olimpiya Festivalından danışsaq, deyərdim ki, bu mötəbər idman bayramı və OCEP layihəsi nəinki Azərbaycanın qapısını dünyaya açdı, eyni zamanda, Azərbaycan məktəbilərinin bir-biri ilə də ünsiyyətini bir daha möhkəmləndirdi. Çünki bu layihədə seçilmiş məktəblər var idi. Bu məktəblilər pavilyonda birbiri ilə tanış oldular. Onlar qarşılıqlı ünsiyyət yaratdılar, biliklərini birbiri ilə bölüşdülər.

Qeyd edim ki, biz İsveçrə məktəbini təmsil edirdik. Onların tarixini, adətənənəsini öyrəndik, gəzməli yerləri ilə onlayn tanış olduq. Fürsətdən istifadə edib bizə layihə zamanı dəstək olan hər kəsə minnətdarlığımı bildirirəm.

***Namiq Cəfərov (Səbail rayonu 189-190 saylı məkəbin fiziki-tərbiyə müəllimi, OCEP layihəsində ekspert):***

- Mən Yunanıstana səfər zamanı ekspert qrupunu təmsil edirdim. Bu layihədə iştirak edən bütün ekspert qrupuna öz təşəkkürümü bildirirəm. Olimpiya Oyunlarının keçirildiyi yerlər barədə qəzetlərdə, saytlarda və televiziya kanallarında məlumatlar əldə etmişik. Amma bu mötəbər yarışların keçirildiyi yerləri gözümüzlə görmək tamamilə başqa hissdir. Şagirdlər Olimpiya muzeyi, Akropolis, açıq səma muzeyi, 1896-cı ildə ilk dəfə Olimpiya Oyunlarının keçirildiyi stadionda oldular. Bir sözlə, çox maraqlı səfər oldu. Qeyd edim ki, özüm həm də fiziki-tərbiyə müəllimiyəm. Bu səfər zamanı özüm üçün çoxlu qeydlər etdim. Fiziki-tərbiyə müəllimlərinin orda iştirakı böyük şərəfdir. Gördüklərimizin hər biri sanki, bir tarixdir. Afinada üç gün qaldıq. Bu səfər hər birimiz üçün yaddaqalan oldu.

***Emil Rüstəmli (Bakı şəhəri Səbail rayonu 7 saylı məktəbin şagirdi):***

- Biz OCEP layihəsi çərçivəsində məktəbimizlə birlikdə İsveçrəni təmsil edirdik. Burada İsveçrənin tarixi, adət-ənənələri ilə tanış olduq. Məktəbimiz həmçinin İsveçrə səfirliyi ilə də yaxından əlaqələr qurdu. Biz İsveçrə səfirliyinin bir neçə tədbirində iştirak etdik, Səfirliyin nümayəndələri ilə mütəmadi olaraq görüşlər keçirdik. Əlbəttə, bu çox sevindirici idi. Həm OCEP layihəsində iştirak edirdik, həm də səfirliklə əlaqələrimiz yaranırdı. OCEP layihəsində 49 məktəb iştirak edirdi. Bu məktəblərin hər biri öz fəallığı ilə seçilirdi. Belə tədbirlər bizim təcrübə qazanmağımızda və dünya görüşümüzün inkişafına müsbət təsir göstərir. Bu da gələcəyimiz üçün yaxşı haldır. Düzdür, buna qədər Qəbələdə olmuşdum. Amma Qəbələ Atıcılıq Klubunda ilk dəfə idi ki, olurdum.

Onu da qeyd edim ki, 5 ilə yaxın velosiped idmanı ilə məşğul olmuşam. Bundan başqa, futbol və basketbol idman növlərinə də maraq göstərmişəm.

***Gülüstan İsayeva (193 saylı orta məktəbin 11-ci sinif şagirdi):***

- 193 saylı məktəb də OCEP lahiyəsində fəlallığı ilə seçilirdi. Bu tədbirlərdə fəallıq göstərdiyimizə görə belə bir mükafat əldə etdik. Afinada ilk dəfə idi ki, olurdum. Bu səfərdə iştirak etdiyim üçün çox xoşbəxtəm. Orda Zevsin məbədi və bir sıra tarixi abidələri yaxından gördüm. Tarix kitablarından oxuduqlarımın real həyatda şahidi oldum. Dünyanın ilk stadionu ilə tanış olduq, həmçinin ilk Olimpiya məşəlinin necə yandırılması haqqında məlumatlar əldə etdik. Bir sözlə, Yunanıstana səfər yaddaşımda unudulmaz xatirə kimi qalacaq.

***Məhəmməd Abbaslı (Arif Hüseynzadə adına 20 saylı məktəb-liseyin 9-cu sinif şagirdi):***

- Biz OCEP layihəsi çərçivəsində Yunanıstanın Afina şəhərində və Olimpiya Kəndində olduq. Burada bir sıra tarixi məkanları və muzeyləri gəzmək imkanı əldə etdik. Olimpiya Kəndində Azərbaycan bayrağını digər bayraqlar arasında dalğalandırdıq. İlk dəfə idi ki, Avropaya səfər edirdim. Bu tədbir mənim yaddaşımda silinməz iz qoydu.

Qeyd edim ki, mən özüm də idmana maraq göstərirəm. 12 yaşımdan kapoeyra ilə məşğul oluram. Hətta bir neçə dəfə respublika və Bakı çempionatlarının qalib və mükafatçısı da olmuşam.

*Zərintac Məmmədzadə,*
*Turqay Musayev,*
*Qasım Xuluflu,*

*BDU-nun jurnalistika fakültəsinin tələbələri*




## Ağırlıqqaldıranlarımız Avropa birinciliyində çıxış ediblər

Rumıniyanın paytaxtı Buxarestdə yaşı 20 və 23-ə qədər olan gənclər arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyi keçirilib. 2020-ci il Tokio Olimpiya Oyunlarına lisenziya xarakterli olan bu yarışda 41 ölkədən 488 atlet (206 qadın və 282 kişi) iştirak edib. Azərbaycan yığma komandasının üzvləri də medallar uğrunda mübarizə aparıblar. Komandamızın üzvlərindən Əliş Nəzərov və İsmayıl Qurbanov da körpücük üzərinə qalxıblar. Əliş Nəzərov yaşı 20-yə qədər olan atletlərin 109 kiloqram çəki dərəcəsində yarışıb. O, ümumilikdə 323 kiloqram (147+176) nəticə ilə 9-cu yeri tutub.

İsmayıl Qurbanov isə yaşı 20-yə qədər olan atletlərin +109 kiloqram çəki dərəcəsində qüvvəsini sınayıb. O, ümumilikdə 320 kiloqram (135+185) nəticə ilə 11-ci olub.



## Karateçilərimiz yeni sınaq qarşısında

Noyabrın 1-2-də Macarıstanın Monor şəhərində vado-kai karate üzrə 47-ci Avropa çempionatı keçiriləcək. Qitə çempionatında ölkəmizi “Azərbaycan Vado-Ryu Karate-do” klubunun idmançıları təmsil edəcəklər. Avropa Vado-Kai Karate-Do Federasiyasının Azərbaycandakı rəsmi nümayəndəsi, Əməkdar məşqçi Gündüz Mahmudovun rəhbərliyi altında Macarıstana yollanacaq komandamızın heyətində 10 idmançı, 3 məşqçi və 1 hakim yer alıb. İdmançılarımız çempionatda həm fərdi, həm də komanda yarışlarında mübarizə aparacaqlar.

Qeyd edək ki, oktyabrın 30-da Macarıstana yola düşəcək yığma komandamız noyabrın 4-də Vətənə qayıdacaq.

# Formula 1



## Hamiltondan növbəti qələbə

Formula 1 üzrə dünya çempionatının 18-ci mərhələsinin - Meksika Qran-Prisinin qalibi müəyyənləşib. “Mersedes” komandasının britaniyalı pilotu Luis Hamilton finiş xəttinə birinci çatıb.

Bu mərhələdə ikinci yeri “Ferrari”nin almaniyalı pilotu Sebastyan Fettel, üçüncü yeri isə “Mersedes”in üzvü Valtteri Bottas tutublar.

Qeyd edək ki, Formula 1 üzrə dünya çempionatının növbəti - 19-cu mərhələsi noyabrın 1-3-də ABŞ-da keçiriləcək.

* * *

Formula 1 rəhbərliyi dünya çempionatının yeni texniki, idman və maliyyə reqlamentinin qəbul edilməsinə həsr edilmiş növbəti görüş keçirib. Yeni reqlamenti 2021-ci ildə tətbiq etmək nəzərdə tutulub. Lakin top-komandaların bu məsələyə dair yeni təklifi var. Görüşdə aparıcı Formula 1 kollektivləri yeni reqlamentə keçidi 2022-ci ilə qədər təxirə salmağı, lakin büdcələrə limiti 2021-ci il mövsümündən tətbiq etmək planlarını saxlamağı təklif ediblər.




Komandaların başçılarının fikrincə, vaxtın bu şəkildə uzadılması yeni reqlamentin hələ təkmilləşdirilməmiş və yetərincə inkişaf etdirilməmiş qaydalarını dəqiqləşdirməyə kömək edərdi. Bundan əlavə, hamı öz maşınlarını büdcələrə qoyulan limit çərçivəsində yeni qaydalara uyğun şəkildə hazırlamağa başlayardı.

“Red Bull”un başçısı Kristian Horner deyib: “2021-ci ilin büdcəsinə məhdudiyyət qoyaraq, 2022-ci ilin reqlamentinin inkişafına və dəqiqləşdirilməsinə daha çox vaxt ayıra bilsəydik, daha yaxşı olardı. 2020-ci ildə büdcəyə limit qoyulmasına gəldikdə isə bu barədə razılığa gəlmək mümkün deyil. Bütövlükdə limit ağlabatan fikirdir, lakin 2020-ci ildə indiki reqlamentlə keçid dövrü bu mövsümü çox bahalı edəcək”.

“Mersedes”in başçısı Toto Volf, habelə “Reysinq Poynt”un rəhbəri Otmar Zafnauer həmkarlarının fikrini dəstəkləyiblər. Amma “Maklaren”in başçısı Andreas Zaydl qeyd edib ki, təklif edilmiş qaydalar onun xoşuna gəlir və o, sadəcə həmin qaydaların 2019-cu il oktyabrın 31-nə qədər təsdiq olunmasını gözləyir.

* * *

“Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti (BŞH) paytaxtımızda baş tutmuş Formula 1 Azərbaycan Qran-Prisi yarışlarının akkreditasiyalı media nümayəndələri üçün idman üzrə ingilis dili kursları təşkil edəcək.

BŞH-dən verilən məlumata görə, kursun keçirilməsində əsas məqsəd azərbaycanlı media işçilərinin ingilis dili bacarıqlarına yiyələnmələri ilə yanaşı, mövcud bacarıqların daha da inkişafını təmin etməkdir.

BŞH-nin marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai ingilis dili kursunun Azərbaycanda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin (KİV) nümayəndələri üçün yeni imkanlara yol açacağını bildirib: “Bu təlim daim inkişaf edən idman aləmi, xüsusən də Formula 1 haqqında yeniliklər əldə etmək, bu yeniliklər əsasında xəbər hazırlamaq, həmçinin ölkəmizdə keçirilən beynəlxalq idman yarışlarının fəal iştirakçısına çevrilmək baxımından yerli media işçilərimiz üçün yeni imkanlar yaradacaq.”

İngilis dili kursuna müraciət prosesinə noyabrın 1-də start veriləcək və ayın 15-dək davam edəcək. Kursa yalnız indiyədək Bakıda baş tutmuş Formula 1 yarışlarından hər hansı birində akkreditasiyalı şəkildə iştirak etmiş müxbir və fotoqraflar qatıla bilərlər. Yerlər məhduddur.

Dil kursları bu ilin noyabrın sonunda başlayacaq və 2020-ci il martın sonunadək davam edəcək. Qəbul qaydaları və kurs haqqında daha ətraflı məlumat yaxın günlərdə əməliyyat şirkəti tərəfindən açıqlanacaq.

## Biləsuvarda gənclər arasında veloyürüş təşkil olunub

Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) birgə təşkilatçılığı ilə Biləsuvarda “Sağlam gənclik” layihəsi keçirilib. Layihənin keçirilməsində əsas məqsəd gənclərin sağlam həyat tərzinə cəlb olunmasını təmin etmək, ekoloji sağlam həyatın inkişafına dəstək verməkdir.

Gənclərin veloyürüşü ilə başlayan layihədə 400-dən çox gənc iştirak edib. Biləsuvar Rayonu Gənclərin Karyera və İnkişaf Mərkəzinin qarşısından start verilən yürüşdə velosipedçilər 10 kilometr məsafə qət ediblər.

Tədbirdə Azərbaycan Respublikasının Gənclər Fondu və AzVİF-in rəhbərliyi də iştirak edib. Çıxış edənlər velosiped idmanının sağlamlıq üçün əhəmiyyətindən, regionlarda yaşayan gənclərin bu idman növünə cəlb edilməsinin vacibliyindən danışıblar.

Tədbir zamanı gənclərə əyani olaraq velosiped üzərində praktiki təlimlər keçirilərək müzakirələr aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Daha sonra ərazidə velosiped dayanacaqları quraşdırılıb.

## Tanınmış aikido ustası Bakıda beynəlxalq seminar keçib

Oktyabrın 26-da Azərbaycan Aikido Mərkəzində Avrasiya Aikido Təşkilatının yaradıcısı və texniki direktoru Nəbi Vuralın rəhbərliyi altında beynəlxalq seminar keçirilib.

Seminarda Bakı, Gəncə, Oğuz, Şəki, Göyçay, Lənkəran və Astaradan idmançı və məşqçilər iştirak ediblər.

Qeyd edək ki, N.Vural 40 ildən artıqdır aikido ilə məşğul olur. O, Fransada ustad N.Tamuranın rəhbərliyi altında idmanın bu növünün sirlərini öyrənməyə başlayıb. Ustad N.Tamura aikidonun banisi O-Sensey Morihey Ueşibanın tələbəsi olub. N.Vuralı ölkəmizə Azərbaycan Aikido Federasiyasının prezidenti 6-cı dan Sensey Fərhad Ələsgərov dəvət edib.

## Gənc karateçilərimiz dünya çempionatını 4 medalla başa vurdular

Çilinin paytaxtı Santyaqoda keçirilən yeniyetmə və gənclər arasında karate üzrə XI dünya çempionatına yekun vurulub. Azərbaycan komandası dünya çempionatını 4 medalla başa vurub.

Yarışda milli komandamızın üzvü Hüseyn Məmmədli - 61 kq çəki dərəcəsində gümüş medala sahib çıxıb. “Təhsil” Respublika İdman Mərkəzinin yığma komandasının üzvü olan Hüseyn bu uğuru 16-17 yaşlı idmançıların mübarizəsində qazanıb. “Təhsil” RİM-in baş məşqçisi, Əməkdar məşqçi Əbülfət Qarayevin yetirməsi olan H.Məmmədli çempionatda 6 görüş keçirib. Yalnız finalda zədə səbəbindən Misir idmançısına məğlub olan idmançımız gümüş medala layiq görülüb.

Qeyd edək ki, Hüseyn Məmmədli həmçinin bu il yeniyetmə və gənclər arasında keçirilən Avropa çempionatında bürünc, Məktəblilərin Dünya Döyüş Oyunlarında isə qızıl medala layiq görülmüşdü.

Yığma komandamızın digər üzvlərindən Sultan Hüseynov (55 kq), Hüseyn Hüseynzadə (76 kq) və Polina Qurenko (53 kq) isə bürünc medala sahib olublar. Təsəlliverici görüşlərə qatılan Namiq Quliyev (76 kq-dan yuxarı) və üç görüşünü qələbə ilə başa vuran Ayla Rzazadə (59 kq) çempionatda yaxşı təsir bağışlasalar da, medalçılar sırasına düşə bilməyiblər.




## Şahmat və dama yarışlarına yekun vurulub

“Gənclik” Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə 2019-ci ilin oktyabr-dekabr aylarında orta-ixtisas təhsil müəssisələri tələbələri arasında XIV Respublika Spartakiadası keçirilir. Spartakiadanın təqvim planına idmanın 6 növü - atletika, şahmat, dama, basketbol, voleybol, stolüstü tennis üzrə yarışlar daxil edilib.

Spartakiadanın proqramına daxil olan şahmat və dama yarışlarına yekun vurulub. 6 komandanın iştirak etdiyi qızların dama yarışlarında Azərbaycan Dövlət Pedaqoji Kollecinin tələbələri birinci yeri tutublar. Bakı İdarəetmə və Texnologiya Kolleci və Bakı 2 Saylı Baza Tibb Kollecinin komandaları isə müvafiq olaraq, ikinci, üçüncü yerə sahib çıxıb. Oğlanların dama yarışlarında da 6 komanda qalib adı uğrunda mübarizə aparıb.



Bakı 2 Saylı Baza Tibb Kollecinin təmsilçiləri bütün komandaları üstələyərək birinci olublar. Azərbaycan Dövlət Pedaqoji Kolleci ikinci, Bakı İdarəetmə və Texnologiya Kolleci isə üçüncü yeri tutub.

Oğlan və qızlar arasında keçirilən spartakiadanın şahmat yarışlarında da 6 komanda birincilik uğrunda mübarizə aparıb. Qızların mübarizəsində Azərbaycan Dövlət Pedaqoji Kolleci birinci yerə sahib çıxıb. Bakı İdarəetmə və Texnologiya Kolleci və Bakı 2 Saylı Baza Tibb Kollecinin komandaları isə müvafiq olaraq, ikinci, üçüncü yerləri tutublar.

Oğlanların yarışında Bakı İdarəetmə və Texnologiya Kollecinin tələbələri birinci yerə layiq görülüblər. Bakı 2 Saylı Baza Tibb Kollecinin komandası ikinci, Bakı Rabitə və Nəqliyyat Kollecinin tələbələri isə üçüncü olublar.

— Müsahibə —

# Xırdalan məktəbində gələcəyin istedadlı şahmatçıları yetişir



***İntellektual idman növlərindən biri olan şahmat yarandığı dövrdən bu günə kimi öz populyarlığını və əhəmiyyətini qoruyub saxlaya bilib. Aparılan araşdırmalara görə bu gün dünyada milyarda yaxın insan şahmatla maraqlanır. Bu heç də bəsit göstərici sayılmır. Şahmat insan düşüncəsi, həyat fəaliyyəti üçün xarakterik olan bir məşğuliyyətdir. Psixoloqların fikrincə bu intellektual idman növü ilə lap erkən vaxtlarda məşğul olmaq vacib şərtdir.***

Araşdırmalara görə, şahmatın sayəsində uşaq kiçik yaşlarından müstəqil qərar verməK kimi xüsusiyyətə yiyələnir. Bundan əlavə, uşaqlarda mövcud vəziyyəti məntiqli qiymətləndirmək vərdişi də formalaşır. Təbii ki, bu bacarıqlar onun gələcəkdə bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Bundan əlavə şahmatla məşğul olan uşaqlar vaxtlarını düzgün planlaşdırmaq, strateji düşüncə tərzi və qoyulan məqsədlərə çatmaq bacarıqlarına malik olurlar. Nəticədə uşağın yaddaşı və riyazi hesablama qabiliyyəti də digər uşaqlara nisbətən daha güclü inkişaf edir. İlk baxışdan darıxdırıcı bir məşğuliyyət təsiri bağışlasa da, bu idman növü əslində uşaqlara mübariz və israrlı olmağı öyrədir. Bu baxımdan şahmat, boks, cüdo və ya güləşdən heç də geri qalmır. Yeganə fərq isə fiziki deyil, intelektual gücdən daha çox istifadə olunmasıdır.

Həkimlərin qənaətinə görə, şahmat özü nəinki uşaqda, hətta böyüklərdə də, hər iki yarımkürənin eyni vaxtda işləməsinə təsir göstərir. Bu həm diqqəti formalaşdırır, həm foto yaddaşı gücləndirir, Eyni vaxtda sol və sağ yarımkürə vəhdət təşkil edir. Təbii ki, bu da həm məntiqi təfəkkürü formalaşdırır, həm də ki, uşağın daha yaradıcı qabiliyyətə malik olmasını yaradır.

"Olimpiya dünyası" qəzeti ölkəmizdə şahmata diqqət yetirən idman nəşrləri arasında xüsusi rola malikdir. Hər sayımızda bu intellektual idman növü üzrə keçirilən yarışlardan, uğur qazanan şahmatçılardan bəhs edən yazılar dərc edirik. Budəfəki sayımızda şahmatda ilk addımlarını atan kiçikyaşlı bir istedadı oxucularımıza təqdim etmək istəyirik. Şamil Hüseynov 11 yaşı olmasına baxmayaraq, intellekti ilə xeyli fərqlənir. Onunla söhbətimiz zamanı bir daha belə qənaətə gəldik ki, şahmat uşağı insani keyfiyyətlərə kökləyir, onu cəmiyyətə layiqli bir vətəndaş kimi hazırlayır.

## "Təkcə, fiqurların hərəkətlərini bilmək kifayət etmir"

Şamillə söhbətimiz elə onun şahmat dərsi keçdiyi otaqda baş tutdu. Respublika dərəcəli hakim, məşqçi-müəllim Ruhəngiz Dibirova da bizə onunla söhbət üçün şərait yaratdı. Şahmat müəllimi əvvəlcə məktəb haqqında məlumat verdi. O bildirdi ki, 2014-cü ilin oktyabr ayında açılışı olan bu məktəbdə yüksək şərait yaradılıb, balacaların şahmatın sirlərinə yiyələnmələri üçün bütün tələblər nəzərə alınıb. Şamilin sevimli müəllimələrindən biri olan Ruhəngiz xanım əvvəlcə özü barədə məlumat verdi.

"20 ildir ki, məşqçi-müəllim kimi çalışıram. Mənim şahmatda dərəcəm yüksək olduğu üçün artıq gənc yaşlarımdan demək olar ki, məşqçiliyə başlamışdım. 2013-cü ildən "Təhsil" Respublika İdman Mərkəzinin 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Şahmat Məktəbində məşqçi-müəllim işləyirəm. 2014-cü ildən isə məni Xırdalan şahmat məktəbinə dəvət etdilər. Elə həmin müddətdən də burada çalışıram. Burada kifayət qədər uşağın şahmat sirlərinə yiyələnməsində vasitəçi olmuşam. Respublika dərəcəli hakiməm. Tezliklə FİDE hakimi adını alacağam. Məktəb barəsində məlumat verim ki, bu təhsil ocağı cəmi beş ilə yaxındır ki, fəaliyyət göstərir. Burada 5 yaşından 16 yaşına qədər uşaqlar şahmatın sirlərinə yiyələnirlər. Məktəb yeni olduğuna görə nailiyyətləri bir o qədər də çox deyil. Hər şey görülən işdən və çəkilən zəhmətdən asılıdır. İnanıram ki, bizim şahmat məktəbi də ölkəmizdə fəaliyyət göstərən digər məktəblər kimi nailiyyətli şahmatçıların yetişməsində böyük pay sahibi olacaq", - deyə Ruhəngiz müəllimə bildirdi.

Daha sonra müsahibimiz yeniyetmə şahmatçımız barəsində fikirlərini diqqətə çatdırdı. Söhbət zamanı hiss etdik ki, müəllimə öz şagirdinin dərslərə, xüsusilə şahmata olan həvəsindən çox razıdır. "Bu məktəbdə istedadlı yetirmələrimiz var. Belə şahmatçılardan biri də Şamil Hüseynovdur. Şamil məktəbimizə 2016-cı ilin sentyabr ayından daxil olub. Hər zaman dərslərdə nümunəvi şagird kimi davamlı olaraq iştirak edib. Artıq ilk dərslərimizdən onun istedadlı olduğunu hiss etmişdim. Etiraf edim ki, Şamil düşüncəsinə və həvəsinə görə həmyaşıdlarından fərqlənirdi. Ona verilən tapşırıqları tez bir zamanda yerinə yetirirdi. Ən əsası isə şahmat oynamağı həddindən artıq çox sevir, həvəsi hədsizdir. Bu isə hər uşaqda hiss olunmur. Şamil tezliklə məktəbdaxili və Xırdalan şəhərində yerləşən yarışların hər birində iştirak etdi. Bir müddətdən sonra isə nəticələr qazanmağa başladı. Qısa zaman ərzində ardıcıl olaraq, 4, 3 və 2-ci dərəcə normalarını yerinə yetirdi. Şamil, əsasən Xırdalanda keçirilən yarışlarda iştirak edib. Lakin onun böyük potensialı var. Əgər o şəhər yarışlarında iştirak etsə idi, bu gün artıq birinci dərəcə normasını da yerinə yetirmiş olardı. Bir müəllim olaraq Şamilin istedadını görür, hər zaman onu dəstəkləyirəm. Düşünürəm ki, gələcəkdə də Şamil böyük nəticələr qazana biləcək.

Bir məsələni də qeyd edim ki, uşaqlar müxtəlif xarakterli olur. Bəzi istedadlı uşaqlar var ki, onların oturma və dinləmə qabiliyyəti zəif olur. Şamil məktəbə yeni gələndə də dərslərdə oturmağa səbri çatmırdı. Daim şahmat oynamaq istəyirdi. Həmişə Şamilə məsləhət verirdim ki, oynamaq üçün, əvvəlcə bu oyunun elmini öyrənməlisən, bildiklərini tətbiq edəsən. Təkcə, fiqurların hərəkətlərini bilmək kifayət etmir. Bu oyunun nəzəriyyəsini də bilməlisən.

Müəllimənin borcu uşağa şahmatı sevdirmək, ona bu növün sirlərini, incəliklərini izah etməkdir. Lakin bu işdə bizə valideynlər də kömək etməlidirlər. İdman elə bir sahədir ki, valideynlə müəllim birgə işləməlidir. Uşaq dərsdə öyrəndiklərini tətbiq etmək üçün mütləq yarışlarda iştirak etməlidir. Təkcə məktəbdə öyrəndikləri ilə kifayətlənməməlidir. Bunun üçün valideynlər özləri uşaqlarının şəhərdə keçirilən yarışlarda iştirakına şərait yaratmalıdır. Əgər uşaq, nə qədər çox yeni rəqiblə qarşılaşsa, bu ona gələcək karyerasında təcrübə baxımından böyük kömək olacaq. Təəssüf ki, bu gün valideynlər buna etinasız yanaşırlar. Belə olan halda isə uşaqların öyrəndikləri biliklər o qədər də effektli olmur", - deyə o bildirdi.

## "Mən də tanınmış qrossmeysterlərin sırasında olmaq istəyirəm"

Şahmat otağında söhbətmiz zamanı hiss etdik ki, Şamil də öz fikirlərini bildirmək istəyir. Elə buna görədə Şamilə özünü təqdim etməsini və şahmata olan sevgisinin haradan qaynaqlandığını sual verdik. Utancaq müsahibimiz özü barədə bunları dedi: "2008-ci il sentyabrın 19-da anadan olmuşam. Şahmatı 2015-ci ildə mənə atam öyrədib. O, həvəskar şəkildə şahmat oynayır. Şahmatda uğur qazanmaq üçün onunla peşəkar məşğul olmaq lazımdır.



Ruhəngiz müəllimə mənə şahmatın incəliklərini öyrədib. 2016-cı ildən Xırdalan şahmat məktəbinin şagirdiyəm. Şahmat oynamaq, bu oyunu öyrənmək dərslərimdə də mənə böyük kömək olur. Riyaziyyat fənni çox çətin fənlərdən biridir. Amma mən həmin fənni yaxşı oxuyuram. Evdə valideynlərim də mənə kömək edirlər. Hiss edirəm ki, onlar mənim şahmat oynamağımdan və dərslərimi yaxşı oxumağımdan razı qalırlar. Özüm də çox istəyirəm ki, gələcəkdə tanınmış şahmatçılar sırasında yer alım. Çalışacağam ki, bunun üçün özümü daha da inkişaf etdirim. Asudə vaxtlarımda şahmat kitabından "Karo-Kann müdafiəsi" və s kimi gedişləri öyrənməyə çalışıram. Gələcəkdə keçiriləcək turnirlərdə çempion olmaq üçün müxtəlif kombinasiyaları, debütləri və gedişləri öyrənməli, biliklərimi daha da təkmilləşdirməliyəm.

Hələ ki, Xırdalanda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş yarışlarda, həmçinin bilik gününə həsr olunmuş turnirlərdə birinci yeri tutmuşam. Bu naliyyətlər məni yeni qələbələr qazanmağa və mübarizə aparmağa stimul verdi. Düşünürəm ki, nailiyyət qazanmaq üçün daha böyük yarışlarda iştirak etməli və hazırlıq səviyyəmi daha da yaxşılaşdırmalıyam. Ölkəmizdə Teymur Rəcəbov, Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Qədir Hüseynov kimi güclü zəka sahiblərimiz var. Mən də gələcəkdə tanınmış qrossmeysterlərin sırasında olmaq istəyirəm. Əgər bir gün həmin şahmatçılar bizim məktəbdə seans keçsələr, onlardan debütdə hansı gedişlə başlamağı soruşardım. Bu yaxınlarda Aydın Süleymanlı Hindistanda 14 yaşlı şahmatçılar arasında dünya çempionu oldu. Televiziyada eşitdim ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Aydın Süleymanlını qələbə münasibəti ilə təbrik edib. Bu, hadisə mənə daha da stimul verdi. Çox istəyirəm ki, bir gün mən də həmin səviyyəyə çatım. Bunu bacarmaq üçün isə daha çox çalışmaq istəyirəm".

Bununla da Xırdalan şahmat məktəbindəki, görüşümüz başa çatdı. Lakin bu hələ son deyil. Biz əminik ki, yaxın müddətdə yenidən həmin təhsil ocağına baş çəkəcəyik. İnanırıq ki, kiçik şahmatçımızın əldə etdiyi uğurlar daha da artacaq. Biz onunla beynəlxalq yarışın qalibi kimi söhbət edəcəyik. Hər zaman Azərbaycanı təmsil edən idmançıları diqqətdə saxlayan "Olimpiya dünyası" qəzetinin çoxsaylı oxucuları adından balaca şahmatçımıza böyük nailiyyətlər diləyirik.

***Anar Əhmədov***

---

## "Qarabağ" uğurlu seriyanı davam etdirir

Qadın həndbolçuların Azərbaycan çempionatında üçüncü turun oyunları arxada qalıb. Mövsümə inamla start verən "Qarabağ" uğurlu seriyanı davam etdirir. İlk turda "İdman Akademiyası" komandasına, ardınca çempion "Azəryol"a qalib gələn "Qarabağ" "Azərsu" ilə görüşdə də azarkeşlərini sevindirib.

Gərgin idman mübarizəsi ilə yadda qalan oyun 29:27 hesabı ilə başa çatıb. Ardıcıl üçüncü qələbəsini qazanan "Qarabağ" turnir cədvəlində liderliyini davam etdirir.

Günün digər qarşılaşmasından isə "Azəryol" qalib ayrılıb. "İdman Akademiyası" komandası çox çalışsa da, ölkə çempionunun böyük hesablı qələbəsinə mane ola bilməyib - 42:25.

Dördüncü turun oyunları noyabrın 6-da keçiriləcək. Həmin gün "Azəryol" komandası "Azərsu", "Qarabağ" isə "İdman Akademiyası" ilə üz-üzə gələcək.

Oktyabrın 26-da kişi həndbolçuların çempionatında 3-cü turun görüşləri olacaq. "ABU Arena"da keçiriləcək oyunlarda "Məhsul" komandası U-18 kollektivini sınağa çəkəcək. "Təhsil" isə "Bakı" ilə qarşılaşacaq.

## Sambo üzrə Bakı birinciliyinin qalibləri müəyyənləşdi



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Abşeron Olimpiya İdman Kompleksində 1999-2000-ci illər təvəllüdlü idmançılar arasında sambo üzrə paytaxt birinciliyi keçirilib.

Birincilikdə 10 çəki dərəcəsi üzrə 102 idmançı mübarizə aparıb.

Yarışda İnqilab Baxışov (48 kq), Rəşad Salayev (52 kq), Tofiq Əliyev (57 kq), Kənan Babayev (62 kq), Xankişi Cəfərquliyev (68 kq), Şöhrət Lətifzadə (74 kq), Ağani Məmmədov (82 kq), Xəlil Cəlilzadə (90 kq), Əli Əlizadə (100 kq) və Eltun Qəmbərov (100-dan yuxarı) qızıl medal qazanıblar.

İlk üç yeri tutan idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə təltif olunublar.



## XXI Respublika Spartakiadasında voleybol yarışlarına yekun vurulub

“Zenit” Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin xidmət sahəsinə daxil olan müəssisə və təşkilatların Azərbaycan Respublikasının “Dövlət Müstəqilliyi Günü”nə həsr olunmuş XXI Respublika Spartakiadası davam edir. Yarışların proqramına 10 idman növü (futbol, voleybol, daşqaldırma, kəndirdartma, stolüstü tennis, üzgüçülük, dama, nərd, şahmat, güllə atıcılığı) daxildir. “Xalqın mənəvi və fiziki sağlamlığı uğrunda” devizi altında keçirilən yarışlarda “Zenit” Bədən Tərbiyəsi İC İB-in xidmət sahəsinə daxil olan müəssisə və təşkilatlarda işləyən fəhlə və qulluqçular iştirak edirlər. Spartakiada çərçivəsində keçirilən voleybol yarışlarına yekun vurulub. Gərgin mübarizə şəraitində keçən yarışda Müdafiə Sənayesi İşçiləri Hİ RK-nın komandası birinci yerə layiq görülüb. Metropoliten İşçiləri HK və Aviasiya İşçiləri Hİ RK-nın komandaları isə müvafiq olaraq ilk üçlükdə qərarlaşıblar.

Yarışın mükafatlandırma mərasimində Müdafiə Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Baş Texniki Əmək müfəttişi Səxavət Heydərov və “İqlim” EİM MMC-nin Həmkarlar Təşkilatının sədri Məzahir Kazımov iştirak edib.

Qeyd edək ki, spartakiadanın keçirilməsində əsas məqsəd zəhmətkeşlərin sağlamlığının möhkəmləndirilməsi, onların bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsini təmin etmək, müəssisə və təşkilatların fəhlə və qulluqçularının asudə vaxtını səmərəli keçirməkdən ibarətdir.

XXI Respublika Spartkiadasına noyabrın 22-də yekun vurulacaq.

Qarabağ idmanı

## Şuşalı güləşçi Elşən

***“Olimpiya dünyası” qəzetinin “Qarabağ idmanı” rubrikası adı altında dərc etdiyi silsilə yazılar davam edir. Müxtəlif illərdə böyük uğurlar əldə edən qarabağlı idmançıların həyat yolundan bəhs edən müəllif yazıları qısa zaman ərzində böyük oxucu kütləsinin marağına səbəb olub.***

***Elə bunu nəzərə alaraq, budəfəki sayımızda Şuşa torpağının yetirməsi olan veteran güləşçi Elşən İbrahimovun idmandakı uğurlarından bəhs edən yazıya qəzetimizin səhifələrində yer ayırmışıq.***

Elşən Hüseyn oğlu İbrahimov 1965-ci il mart ayının 30-da Şuşa şəhərində anadan olmub. O, həmyaşıdları kimi 1972-ci ildə Şuşa şəhər Hüsü Hacıyev adına 4 nömrəli orta məktəbin 1-ci sinfinə gedib və 1982-ci ildə həmin məktəbin X sinfini müvəffəqiyyətlə bitirib.

Elşən İbrahimovun uşaqlıq illəri çox maraqlı keçmişdir. O, pəhləvan olmaq arzusunda idi. Şuşada el pəhləvanlarına heyranlıqla tamaşa etdikcə, onda bu sahəyə güclü həvəs oyanırdı. Evləri də şəhərin yuxarı hissəsində idi. O, hər dəfə şəhərə çıxa bilmirdi. Məhəllə uşaqları ilə yalnız həftədə bir dəfə şəhərə çıxırdılar. Onda da sözü bir yerə qoyub bir dəfə “Daşaltı” çayına, növbəti həftə isə “Səkili” bulağına gedərdilər. Onlar orada kiçik ağacların budaqlarını qırar, dayaz axan çayın qarşısını kiçik qayalarla, ağacların budaqları ilə kəsər, suyun səviyyəsi qalxanda isə uşaqlar orada çimər və ya üzməyi öyrənərdilər. Eyni zamanda hündür qayalıqlara çıxar, ağacların budaqlarına qalxar, nazik budaqlarda gimnastika hərəkətləri edərdilər. Sonra da gətirdikləri yeməkləri yeyib, doyunca təbii sudan içərdilər, axşama yaxın evlərinə tərəf yollanardılar. Bu hadisələr əsasən yay aylarında baş verərdi...

Elşən İbrahimov orta məktəbdə oxumaqla bərabər, idmana da çox böyük maraq göstərirdi. O, bütün fənləri yaxşı oxuyurdu. Eyni zamanda idmanın bəzi növlərində də fəallıq nümayiş etdirirdi. Məktəbin yığma komandasının tərkibində demək olar ki, futbol, voleybol, güləş, stolüstü tennis, atletika ilə yanaşı başqa idman növlərində də iştirak edərdi. Lakin onun ən çox xoşladığı idman növü sərbəst güləş idi. Elşən İbrahimov Şuşanın tanınmış məşqçiləri Vanyanın, Fəxrəddin Səfərovun sevimli, bacarıqlı



yetirmələrindən sayılıb. O, yeniyetmələr və gənclər arasında bir sıra yarışların qalibi olub. Güləşçi yoldaşlarından Şünasi Babayev, Azər Mahmudov, Ramin Babayev, İlqar Rüstəmov və başqaları müxtəlif illərdə nəinki Şuşanın, eyni zamanda Dağlıq Qarabağın idman şərəfini layiqincə qoruyublar.

Elşən İbrahimov ilk dəfə güləş məşqlərinə 10 yaşında başlayıb. Tədricən təcrübəli idmançıya çevrilib. Onun ilk yarışı isə Şuşa şəhər birinciliyində olub və həmin yarışda ikinci yerə layiq görülüb.

1979-cu ildə Ağdam şəhərində keçirilən Qarabağ Peşə Məktəbləri arasında yüngül çəkidə (-48 kq) qalib adını qazanıb.

Elə həmin il Stepanakert şəhərində keçirilən Dağlıq Qarabağ Muxtar Vilayəti yarışlarında eyni nəticəni təkrarlayıb. Onu da qeyd edim ki, Dağlıq Qarabağ birinciliyində biz Şuşa komandasının üzvləri yüksək yerlər tutanda Respublika birinciliyinə bizi yox, ermənilərdən ibarət Stepanakert komandasını göndərirdilər. Biz də mötəbər yarışlardan geri qalırdıq və nəticədə təcrübələrimizi artıra bilmirdik. O vaxtkı Şuşa rayon idman komitəsi və komsomol komitəsi də belə şeylərə göz yumurdu...

1980-cı ildə Bakı Politexnik Texnikomuna daxil olan Elşən İbrahimov təhsil illərində Politexnik institutunun idman kompleksində məşqlərini davam etdirib. Həmin ərəfələrdə bir çox turnirlərin iştirakçısı və mükafatçısı olub. Bir dəfə Elşən texnikomlararası yarışın (yarışlar Kirovabadda, indiki Gəncə şəhərində keçirilirdi - Ə.N) final görüşündə Kirovabad ermənisi ilə görüşməli oldu. İlk iki hissədə xal fərqinə görə geri olmasına baxmayaraq Elşən üçüncü hissənin son dəqiqəsində rəqibini “suples” fəndi ilə (yəni, güləşçini sinəsi üstə qaldırıb, başı üzərindən arxaya atmaq - Ə.N ) onun üstələyərək, 48 kq çəki dərəcəsində çempion tituluna yiyələnmişdi.

Elşən İbrahimov hərbi xidmətə çağırılana qədər bir çox yarışlarda çıxışlar etmiş, əsasən Respublika birinciliklərinin keçirildiyi Şamaxıda, Əli Bayramlıda, (indiki Şirvan şəhəri) Sumqayıtda, Mingəçevirdə, Salyanda və başqa şəhərlərdə yarışlarda iştirak edərək fəxri fərmanlar, diplomlar, kuboklar və qiymətli hədiyyələr qazanıb. O, dəfələrlə Dağlıq Qarabağ çempionu, Respublika birinciliklərinin iştirakçısı və mükafatçısı olduğuna görə Ümumittifaq Vahid İdman Təsnifatının qaydalarına uyğun olaraq Vilayət İdman Komitəsi tərəfindən “1-ci (birinci) dərəcəli güləşçi” adı ilə təltif olub.

Məlumat üçün bildirək ki, 1990-cı ildə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar Şuşa şəhərində hərbi batalyon yaradılmışdı. Elşən İbrahimov Milli Qəhrəman Ramiz Qəmbərovun yaratdığı bu batalyonda bölük komandiri olub, Şuşa şəhəri işğal olunan günə qədər bütün döyüşlərdə iştirak edib.

Elşən İbrahimov Qarabağ hadisələri ilə əlaqədar olaraq Bakı şəhərində məcburi köçkün kimi məskunlaşıb. Doğma yurd həsrəti çəkən veteran güləşçimiz ötən günlərin xatirəsi və sabaha ümidlə yaşayır.

***Əbülqasım Novruzov,***
***Şuşa Uşaq Gənclər İdman-Şahmat Məktəbinin direktoru***



## DGK İSM “Gömrükçü” İK-nın çerlidinq üzrə birinciliyi keçirilib

Oktyabrın 27-də Azərbaycan Texniki Universitetinin idman zalında Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin “Gömrükçü” İdman Klubunun İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş çerlidinq üzrə açıq birinciliyi keçirilib. Yarışda 6 komandadan (“Gömrükçü” İK, DİN İC, “Sərhədçi” İOM, Sumqayıt, “Ay Ulduz” İK, “Abşeron” İK) 300-dən artıq idmançı mübarizə aparıb. Beynəlxalq Çerlidinq Federasiyasının qaydalarına uyğun keçirilən yarışın təşkilində məqsəd Azərbaycanda bu növün təbliği və inkişaf etdirilməsi olub. Uşaqlar (2011-2013-cü illər), kiçikyaşlı yeniyetmələr (2008-2010-cu illər) və yeniyetmələrin (2004-2007-ci illər) mübarizə apardığı birincilikdə idmançılar çir pom fristayl, çir caz, çir şou, çir dans növləri üzrə qüvvələrini sınayıblar.

Birinciliyin açılış mərasimində Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru, gömrük xidməti polkovniki Xəzər İsayev, Azərbaycan Çerlidinq Federasiyasının prezidenti Alla Vlasova iştirak ediblər.

Xəzər İsayev çıxış edərək Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin adından yarış iştirakçılarını salamlayıb və onlara uğurlar arzulayıb. O, ümummilli lider Heydər Əliyevin ölkə idmanının inkişafındakı xidmətlərindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahəyə göstərilən dövlət qayğısından danışıb. DGK İSM-ın baş direktoru bildirib ki, idmançılarımızın müxtəlif beynəlxalq tədbirlərdə yüksək nəticələr əldə etməsi ölkəmizdə idmana göstərilən diqqət və qayğının bariz nümunəsidir. O, qeyd edib ki, “Gömrükçü” İdman Klubu tərəfindən il ərzində müxtəlif idman növləri üzrə əlamətdar və tarixi günlərə həsr olunmuş yarışlar təşkil edilir. MOK-un vitse prezidenti bu yarışın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu ilin Azərbaycanda “Nəsimi ili”nin elan edilməsi haqqında sərəncamına əsasən təşkil olunduğunu bildirib, Nəsiminin təkcə Azərbaycan xalqının yox, bütün dünyanın ən nəhəng söz dühalarından biri olduğunu diqqətə çatdırıb. Xəzər İsayev yarışın təşkilində əsas məqsədin ölkə idmanında kütləviliyə nail olmaqla yanaşı, Nəsimi irsinin gənc nəslə çatdırılması olduğunu vurğulayıb. O, yeni yaranan Azərbaycan Çerlidinq Federasiyasının qısa zaman ərzində böyük uğurlar qazandığını bildirərək, gələcək fəaliyyətində federasiyaya uğurlar arzulayıb.

Azərbaycan Çerlidinq Federasiyasının prezidenti Alla Vlasova belə yarışların təşkilinin gənclərin, eləcə də çerlidinq idman növünün inkişafı baxımından böyük əhəmiyyət daşıdığını deyib. O, bu idman növündə qısa zaman ərzində kütləviliyin təmin olunduğunu bildirərək, çerlidinqçilərin gələcəkdə ölkəmizi Avropa və dünya çempionatlarında layiqincə təmsil edəcəklərinə inandığını bildirib.

Azərbaycanın Dövlət himni səsləndirildikdən sonra yarış final qarşılaşmaları ilə davam etdirilib. Yekun nəticəyə əsasən ümumi komanda hesabında “Gömrükçü” İK birinci, “Sərhədçi” İOM ikinci, “Abşeron” İK-nin komandası isə üçüncü pillədə qərarlaşıb.

Yarışda I, II, III yerləri tutan idmançılar Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin “Gömrükçü” İdman Klubu tərəfindən müvafiq dərəcəli diplom və medallarla təltif olunublar.




## Azərbaycan millisi iki medal qazanıb

Azərbaycan idmançıları Moldovada səmti müəyyənetmə idman növü üzrə “Moldavian Masters Orienteering Cup” turnirində iştirak ediblər.

Yarışda ölkəmizi təmsil edən idmançılarımız medal qazanmağı bacarmışlar. Belə ki, kişilər arasında Xəyyam Məmmədov, qadınların yarışında isə Rəna Abbaszadə 5 günün ümumi nəticələrinə görə üçüncü yeri tutaraq bürünc medal qazanıblar.

Xatırladaq ki, 5 gün davam edən yarışa 11 ölkədən 200-dən çox idmançı qatılıb.

## Xəzər rayonunun məktəbliləri arasında atletika yarışı təşkil olunub



230 nömrəli tam orta məktəbin idman bazasında atletika üzrə məktəblilər arasında respublika çempionatının Xəzər rayon mərhələsi keçirilib.

Yarışda 26 nömrəli tam orta məktəbin komandası fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 181 nömrəli tam orta məktəbin şagirdləri yarışı ikinci, 322 nömrəli tam orta məktəbin komandası isə üçüncü pillədə başa vurublar.

Qeyd edək ki, yarış Gənclər və İdman, Təhsil nazirlikləri və Milli Olimpiya Komitəsi təşkilatçılığı ilə baş tutub.

# FUTBOL



## Avropa zonası üzrə əsas seçmə mərhələ yekunlaşdı

Futzal üzrə dünya çempionatının Avropa zonası üzrə əsas seçmə mərhələsi başa çatıb.

8 qrupda keçirilən oyunlardan sonra elit-raundun bütün iştirakçıları müəyyənləşib.

Oyunları Bakıda keçirilən 3-cü qrupun qalibi olan Azərbaycan yığmasından başqa daha 15 komanda turu adlayıb. Bunlar Belarus, Çexiya, Xorvatiya, Finlandiya, Fransa, İtaliya, Qazaxıstan, Portuqaliya, Rumıniya, Rusiya, Serbiya, Slovakiya, Sloveniya, İspaniya və Ukrayna yığmalarıdır.

Elit-raundun püşkatması noyabrın 7-də baş tutacaq. Tədbir Bakı vaxtı ilə saat 17:15-də başlayacaq.

Komandalar püşkatmada 4 qrupa bölünəcək. Qrup qalibləri 2020-ci ildə Litvada təşkil olunacaq yarışa vəsiqə qazanacaq. İkinci yerin sahibləri isə pley-offda son iki vəsiqə üçün mübarizə aparacaq.

Qeyd edək ki, Azərbaycan yığması Moldovanı 3:1, Monteneqronu 3:2, Slovakiyanı 2:0 hesabı ilə məğlub edib.

## Avropada matçlar 1 saat gec başlayacaq




Oktyabrın sonuncu bazar günü bir çox Avropa ölkəsinə qış vaxtına keçidlə əlaqədar olaraq saat əqrəbləri bir saat geri çəkilib.

Bu səbəbdən Avropada bir sıra nüfuzlu idman yarışlarının başlama saatında avtomatik dəyişilik olacaq.

Məsələn, bundan sonra Çempionlar Liqasının və Avropa Liqasının Avropa ölkələrində keçiriləcək oyunları bu mövsümdə bu günə qədər olduğu kimi, Bakı vaxtı ilə saat 20:55 və 23:00-da deyil, 21:55 və 00:00-da başlanacaq. Bu proses gələn həftədən başlayaraq gələn ilin martın son bazar gününə, Avropada yay vaxtına keçid olana qədər davam edəcək.

Bu, Avroliqanın qrupunda yarışan "Qarabağ"ın səfər oyunlarına da təsir edəcək. Ağdam klubunun APOEL-lə səfər matçı Bakı vaxtı ilə saat 21:55 (7 noyabr), "Sevilya" ilə görüşü isə 00:00-da (29 noyabr, İspaniyada 28 noyabr) başlanacaq.

Xatırladaq ki, Azərbaycanda qış və yay vaxtına keçid ləğv olunub.

## "Zirə"nin ən çox qol vurduğu komanda

"Zirə"nin Azərbaycan Premyer Liqasının 9-cu turunun "Sabah"la oyununda vurduğu ilk qol klubun tarixinə 100-cü səfər topu kimi düşüb. Bu qola 22-ci dəqiqədə Nicat Süleymanov imza atıb. Qarşılaşmanın sonlarındakı bərabərlik topu isə "Qartallar"ın rəqib meydanında vurduğu topların sayını 101-ə çatdırıb. Bu qollar 90 oyunda vurulub. Səfərdəki orta məhsuldarlıq 1,12-yə bərabərdir. Bu toplardan 62-si Premyer Liqa, 27-si Birinci divizion, 9-u Azərbaycan kuboku, 3-ü Avropa Liqasına təsadüf edib. Komandanın səfər qolları mövsümlər üzrə belədir: 2014/15 - 27, 2015/16 - 18, 2016/17 - 14, 2017/18 - 18, 2018/19 - 20, 2019/20 - 4.

25 rəqibin meydanında fərqlənən "Zirə"nin səfərdə ən çox qol vurduğu komanda "Neftçi"dir - 13. Qəsəbə klubu "Sumqayıt"la görüşlərdə 9, "Qəbələ", "Səbail", "Keşlə" və AZAL-ın meydanında 7 qol vurub.

## UEFA-nın yeni reytinqi açıqlanıb

Avrokubokların qrup mərhələsinin III turundan sonra UEFA reytinqi açıqlanıb. Çempionlar Liqasında 16, Avropa Liqasında 24 qarşılaşma cədvəldə bəzi dəyişikliklərə səbəb olub.



Portuqaliya Rusiyanı keçərək, 6-cı pilləyə yüksəlib. Şotlandiya Xorvatiyanı 18-ci, İsveç Norveçi 21-ci yerdən sıxışdırıb.

Azərbaycanın mövqeyi dəyişməsə də, xal hesabı artıb. "Qarabağ" Avropa Liqasında APOEL-lə 2:2 hesablı heç-heçə edərək ölkəmizin aktivinə 0,250 xal qazandırıb. Bu, Azərbaycanın cari mövsümdəki əmsalını 3,125-ə yüksəldib. Son 5 ilin nəticələrinə görə hesablanan reytinqimiz isə 18,500 xal olub.

Azərbaycan Avropada 26-cı sıradadır. "Qarabağ"ın evdəki heç-heçəsindən sonra 25-ci yerdəki Qazaxıstanla fərq 0,250-yə qədər azalıb. 27-ci olan Bolqarıstanla fərq isə 1,625-ə bərabərdir.

Qeyd edək ki, cədvəlin ilk pilləsində İspaniya qərarlaşıb - 90,855.

## *Azərbaycan Dillər Universitetində Avro-2020 Könüllülük Proqramı ilə bağlı görüş olub*

Futbol üzrə Avro-2020-nin Bakı Olimpiya Stadionunda keçiriləcək 3 qrup oyunu, eləcə də 1/4 final mərhələsi qarşılaşması ilə əlaqədar yaradılmış Əməliyyat Qrupunun üzvləri tədbirə hazırlıq məqsədilə oktyabrın 28-də Azərbaycan Dillər Universitetinin tələbə və müəllim heyəti ilə görüş keçiriblər.

150-dən çox tələbənin iştirak etdiyi görüşdə Avropa çempionatının tarixi, maraqlı faktlarla yanaşı, Könüllülər Proqramının ötənilki uğurları, eləcə də Avro-2020 ilə bağlı keçirilməsi planlaşdırılan tədbirlər haqda təqdimat nümayiş olunub.

Tədbirdə təşkilati və UEFA ilə əlaqələndirmə işlərindən məsuliyyətli olan AFFA əməkdaşları, Avro-2020 Könüllülər Proqramının səfiri Taleh Yüzbəyov da iştirak ediblər.

Qonaqlar tələbələrin idman və qeyri-idman sahəsində lazımi təcrübə əldə etməsi, gənclərin asudə vaxtının səmərəli təşkili, onların irimiqyaslı və ölkə əhəmiyyətli tədbirlərlə bağlı texniki bilik və bacarıqlarının artırılması baxımından bu cür tədbirlərin təşkilinin əhəmiyyətindən danışıblar, həmçinin bir zamanlar könüllü olaraq qazandıqları təcrübəni və xatirələri tədbir iştirakçıları ilə bölüşüblər.



Könüllülər Proqramı nəinki tələbələr, həmçinin qitə əhəmiyyətli idman tədbirinin bir hissəsi olmaq istəyən hər kəsə açıq olacaq. Proqram çərçivəsində tələbələr üçün təşkilati məsələlərlə bağlı təlimlərin, təhsil-əyləncə kurslarının, xüsusi ustad dərslərinin və sair kimi tədbirlərin keçirilməsi planlaşdırılır.

Noyabrın 15-dək davam edəcək universitet kampaniyası paytaxtda fəaliyyət göstərən 21 təhsil ocağını əhatə edəcək. Qeyd edək ki, Avro-2020 Bakı Könüllülər Proqramına qeydiyyat noyabrın 29-u saat 23:59-da yekunlaşacaq.

## DÇ-2030 üçün müraciətlərə 3 ildən sonra baxılacaq

2030-cu ildə keçiriləcək dünya çempionatının ev sahibi yarışa 6 il qalmış müəyyənləşəcək. Bu barədə qərarı FİFA-nın Şurası qəbul edib.

Çinin Şanxay şəhərində keçirilən iclasda qərara alınıb ki, DÇ-2030-a ev sahibliyi



üçün müraciətlərin qəbuluna 2022-ci ildə başlanılsın. Yarışın meydan sahibi isə 2024-cü ildə baş tutacaq Konqresdə seçiləcək.

Artıq mundiala ev sahibliyi etmək niyyətində olan üç namizəd bəllidir. İngiltərə, Uels, Şotlandiya, Şimali İrlandiya və İrlandiya "beşliy"i yekun qərar verməsə də, belə istəkdədir. İspaniya və Portuqaliyanın birgə təşkilatçılıq istəyi də gündəmdədir. Cənubi Amerikanın dörd ölkəsi - Argentina, Uruqvay, Paraqvay və Çili mundialın okeanın o tayında keçirilməsinə iddia edir. Qeyd edək ki, qarşıdakı DÇ-2022-yə ev sahibliyi edəcək Qətər bu hüquqa yarışdan 12 il əvvəl yiyələnmişdi.

## "Bavariya"lı futbolçulardan komanda yoldaşlarına dəstək

"Bavariya"nın futbolçuları "Union Berlin"lə Bundesliqanın 9-cu turunun matçında (2:1) zədəli komanda yoldaşlarına dəstək nümayiş etdiriblər. Onlar Niklas Süle və Lukas Ernadesin formaları ilə meydana çıxıblar. Ümumi şəkil çəkdirdikləri zaman onlar həmin formaları əllərində tutublar.

## Kristian Pulişiç "zadəganlar"ın tarixinə düşdü

İngiltərə Premyer Liqasının 9-cu turunda "Bernli" ilə görüş (4:2) "Çelsi"nin futbolçusu Kristian Pulişiç üçün əlamətdar olub. Qarşılaşmada het-trik edən "zadəganlar"ın futbolçusu "Çelsi"nin heyətində Premyer Liqada bir oyunda 3 qol vuran ən gənc futbolçu olub. ABŞ-lı yarımmüdafiəçi buna 21 yaş 38 günlüyündə nail olub. Bundan əvvəlki rekord Temmi Abrahama aid idi. İngiltərəli hücumçu Premyer Liqanın 5-ci turunun "Vulverhempton"la oyununda het-trik etmişdi. Abraham bunu edəndə 21 yaş 347 günlük idi.

## Ronald Kuman kataloniyalıların baş məşqçisi ola bilər

"Barselona"nın baş məşqçisi Ernesto Valverde mövsümün sonunda tutduğu vəzifədən gedəcək. Bu haqda İspaniyanın "AS" nəşri məlumat yayıb. Kataloniya klubundan 55 yaşlı məşqçi ilə 2019-20 mövsümünün sonu baça çatacaq müqavilənin müddətini uzadılmayacağı bildirilib. Dəyişikliyə səbəb Valverdenin rəhbərliyi altında Çempionlar Liqasının hər iki mövsümünün "Barselona"nın qalib ola bilməməsidir. Hətta bu uğur hazırkı mövsümdə qazanılsa belə, klub rəhbərliyinin baş məşqçisi ilə yolları ayıracağı qeyd edilib. Hazırda klub baş məşqçi vəzifəsi üçün Ronald Kumanı nəzərdən keçirir. O, Niderland yığmasını çalışdırır. Baş məşqçi vəzifəsinə digər namizəd Mark van Bommeldir.



Dünya idmanı

## 9 topdan sonra məvacibdən imtina etdilər

İngiltərə Premyer Liqasının 10-cu turunda “Lester”ə 0:9 hesabıyla uduzan “Sauthempton”un məşqçilər korpusu və oyunçuları məvaciblərinin bir hissəsindən



imtina ediblər. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Komanda üzvlərinin Steplevud düşərgəsində keçirilən sosial layihələrdə iştirak etdiyi bildirilib. Həmçinin, maaşların müəyyən məbləği xeyriyyə fonduna bağışlanacaq.

Qeyd edək ki, “Sauthempton” öz meydanında 9 cavabsız top buraxaraq, tarixinin ən böyükhesablı məğlubiyyətini alıb.

## Dohada üzgüçünü meduza sancıb

Rusiyalı idmançı Kirill Abrosimovu Qətərdə keçirilən Dünya Çimərlik Oyunları zamanı meduza (dəniz ulduzu) sancıb. Hadisədən sonra K.Abrosimov 5 kilometrlik məsafəni başa vura bilməyib və mübarizəni dayandırıb.

“Karyeram ərzində ilk dəfə idi ki, meduza sancmasından sonra çıxışımı davam edə bilmədim. Bədənimdə yanıqlar,



allergiya müşahidə olunurdu. Baş hərlənməsi, əzələ ağrıları və nəfəs almaqda problemlər yaşadım. Mövsümü bu cür başa vurduğum üçün çox təəssüflənirəm. Doğrudan da açıq dənizdə yarışmaq sürprizlərdə doludur, - deyə Abrosimov qeyd edib. Məlumat üçün bildirək ki, Kirill Abrosimov açıq suda üzgüçülük üzrə Avropa çempionudur.



*Üfüqi*

2. V Olimpiya oyunlarına ev sahibliyi edən şəhər. 3. Mayor rütbəli rusiyalı ikiqat Olimpiya çempionu. 5. “Arsenal”ın Fil dişi sahilindən olan futbolçusu. 6. Azərbaycan...Federasiyası. 7. FİFA reytinqində ən çox əmsalı olan yığma komanda. 9. Gürcüstanın “şahmat şəhəri”. 13. Azərbaycanlı qrossmeyster. 15. İdman və əyləncə növü. 16. XIV Qış Olimpiya Oyunları bu şəhərdə keçirilib.

*Şaquli*

1. Rusiyanı UEFA Avropa liqasında təmsil edən klublardan biri. 4. Ümumdünya Boks Şurasının rəhbəri Maurisio...8. NHL-də iştirak edən hokkey klubu. 10. “Lokomotiv”in müdafiəçisi...Hövedes. 11. “Red Bull”un fransalı pilotu. 12. Hərbçilərin VII Dünya Oyunlarının keçirildiyi şəhər. 14. MMA döyüşündə Meksikanı təmsil edən dünya çempionu.

## Şəhər merini restoranda döyüşə çağırıblar

Ukraynanın paytaxtı Kiyevin meri, peşəkar boks üzrə ağır çəkidə sabiq dünya çempionu Vitali Kliçko qeyri-adi təkliflə üzləşib. Ona restoranda döyüşmək təklif olunub.

Bunu V.Kliçkonun özü açıqlayıb: “Bir neçə gün öncə restoranlardan birinə getdim. Orda artıq şən vəziyyətdə olan bir dəstə əyləşmişdi. Onlardan biri durub mənə dedi ki, sən Kliçkosan. Döyüşlərini görmüşəm. Amma deyə bilərəm ki, sənlə



döyüşməyə hazıram. Mən əminəm ki, sənə qalib gələ bilərəm”. Lakin sabiq dünya çempionu vəziyyətdən çıxış yolu tapıb: “Ona necə cavab verəcəyimi düşündüm və dedim ki, axı mən peşəkaram. Peşəkar yalnız pula görə döyüşür. Pulsuz döyüşmək mənim qaydalarımda yoxdur. Mən çox bahalıyam. Əgər 2 milyon dollar toplaya bilsən, ola bilər ki, səninlə qarşılaşaq. O, bundan sonra imtina etdi. Yəqin Kliçko ilə döyüşmək üçün bu qədər pulu haradan tapacağını düşünüb”.

olimpnews.az - sizin saytınız




## Fransalı futbolçunu ağır cəza gözləyir

“Fiorentina”nın fransalı futbolçusu Frank Riberiyə ağır cəza veriləbilər. Buna səbəb 36 yaşlı yarımmüdafiəçinin A Seriyasının 9-cu turunda evdə “Latsio”ya uduzduqları oyundan (1:2) sonra köməkçi hakimi itələməsi olub. Matçın 89-cu dəqiqəsində qonaqların 2-ci qolu zamanı fransalı futbolçu baş hakimin qərarından narazı qalıb. Bununla da yan xətt hakiminə həddən artıq emosional şəkildə davranıb. Hətta iki dəfə hakimi itələyib. O, buna görə qırmızı vərəqə də alıb. İtaliya mətbuatı iddia edir ki, təcrübəli futbolçuya bu hərəkətinə görə bir neçə oyunluq cəza veriləcək.

## “Alçaq tavan” basketbolçunu zədələdi

“Seltiks” basketbol klubunun mərkəz oyunçusu Tako Foll “Filadelfiya” ilə keçirilən görüşdə iştirak etməyib. Basketbolçunun mütəmadi olaraq keçirilən NBA çempionatının qarşılaşmasında mübarizə apara bilməməsi, onun beyin silkələnməsi ilə əlaqədardır. Belə ki, bir müddət əvvəl 229 sm boya sahib olan Takonun başı tavana dəyib. Hadisə basketbolçunun “Boston” məşq kompleksində fərdi məşq etməsindən sonra baş verib. Həmin vaxt basketbolçu məşqdən sonra əllərini yumaq üçün hamam otağına keçərkən zədələnib. O, bildirib ki, həmin vaxt “alçaq tavana” fikir verməyib.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.